# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 12 (261) dekabr 2025








## Ədliyyə Nazirliyində Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb

**Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfatından 22 il ötür.**

Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar Ədliyyə naziri Fərid Əhmədov, Nazirliyin rəhbər heyəti və kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyublar.

Anım mərasimi daha sonra Nazirliyin inzibati binasında davam etdirilib. Ümummilli Liderin büstü önünə tər güllər qoyulub, xatirəsi ehtiramla anılıb.

## Nazir Fərid Əhmədov Bərdə şəhərində vətəndaşları qəbul edib







**Ədliyyə naziri Fərid Əhmədov 5 dekabr tarixində Bərdə şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.Qəbulda Bərdə, Mingəçevir, Yevlax, Ağcabədi, Ağdam və Tərtər rayonlarından ümumilikdə 61 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib.

Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Ədliyyə naziri medalla təltif olunmuş və hakim təyin edilmiş əməkdaşlarla görüşüb





**Ədliyyə Nazirliyində keçirilən tədbir çərçivəsində nazir Fərid Əhmədov Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında" 22 noyabr 2025-ci il tarixli Sərəncamına əsasən medalla təltif olunmuş əməkdaşları qəbul edib.**

Tədbirdə ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş Nazirliyin bir qrup əməkdaşına medalları təqdim edilib.

Nazir təltif olunan əməkdaşları təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, qanunçuluq, obyektivlik və məsuliyyət prinsiplərinə daim sadiq qalmağın vacibliyini vurğulayıb.

Eyni zamanda, ədliyyə naziri bir sıra birinci instansiya məhkəmələrinin hakimləri vəzifəsinə təyin edilmiş ədliyyə işçiləri ilə görüş keçirib.

Nazir qeyd edib ki, əməkdaşların hakim vəzifəsinə seçilməsi onların uzunmüddətli fəaliyyəti, yüksək peşəkarlığı və hüquqi sahədə qazandıqları zəngin təcrübənin nəticəsidir.

Bildirilib ki, bu cür təyinatlar ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsinə və məhkəmə-hüquq sisteminə ictimai etimadın möhkəmləndirilməsinə xidmət edir.

Əməkdaşlar göstərilən etimada görə təşəkkürlərini bildirərək, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərini qeyd ediblər.

# Ədliyyə Nazirliyində Amnistiya aktının icrası həyata keçirilir















**Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 19 dekabr 2025-ci il tarixində "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarının Ədliyyə Nazirliyi tərəfindən icrası davam etdirilir.**

Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində Amnistiya aktının icrası Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın, Milli Məclisin deputatı Zahid Orucun, Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Ədliyyə Nazirliyinin, Nazirlik yanında İctimai Şuranın, habelə media nümayəndələrinin iştirakı ilə həyata keçirilib.

Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində amnistiyaya düşən 300-ə yaxın məhkuma sənədləri təqdim olunub və azadlığa buraxılması həyata keçirilib.

Amnistiya aktının probasiya nəzarətində olan - azadlığın məhdudlaşdırılması cəzası, ictimai və islah işləri, cərimə cəzası və şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəzanın çəkilməsi təxirə salınmış şəxslərə münasibətdə də icrasına başlanılıb. Ədliyyə Nazirliyinin Probasiya xidmətində aidiyyəti dövlət qurumlarının, Nazirlik yanında İctimai şuranın və media nümayəndələrinin iştirakı ilə probasiya nəzarətində olan şəxslər azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalardan azad olunublar.

Qərarın sevincini yaşayan məhkumlar və ailə üzvləri dövlət başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər, bundan sonra qanunlara dönmədən əməl edəcəklərinə, cəmiyyətin inkişafına töhfə verəcəklərinə söz veriblər.

Hazırda Ədliyyə Nazirliyinin aidiyyəti struktur qurumları tam səfərbər olunmaqla, qanunvericiliyin tələblərinə uyğun və çevik şəkildə Amnistiya aktının icrasını təmin edirlər.

# Türk dövlətlərində hakimiyyətin təşkilinin konstitusion əsaslarına həsr olunmuş beynəlxalq konfrans keçirilib

**Dekabrın 18-də Bakıda Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının təşkilatçılığı ilə "Türk Dövlətləri Təşkilatının üzvlərinin dövlət hakimiyyətinin təşkilinin konstitusion əsaslarının xüsusiyyətləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransdan öncə iştirakçılar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Daha sonra Şəhidlər xiyabanı və Zəfər abidəsi ziyarət edilərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsi yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini Toğrul Hüseynov konfrans iştirakçılarını salamlayaraq tədbirin aktuallığı və əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Nazir müavini çıxışı zamanı Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edildiyini və ölkəmizdə müasir hüquqi mexanizmlərin müəyyən olunmasında, məhkəmə-hüquq islahatlarının genişlənməsində Konstitusiyanın əsas prinsiplərinin rəhbər tutulduğunu vurğulayıb.







Daha sonra Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyəni təmsil edən nümayəndələr mövzu üzrə məruzələrlə çıxış ediblər.

Konfransda Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə Respublikalarının Türk Ədliyyə Təlimi Şəbəkəsinin üzvü olan, ədliyyə və prokurorluq təlimi ilə məşğul olan qurumlardan, həmçinin Azərbaycan Respublikasında bu sahədə fəaliyyət göstərən qurumlardan nümayəndələr iştirak ediblər.

Tədbir çərçivəsində xarici ölkələrin müvafiq qurumlarının rektorları, prorektorları, kafedra müdirləri, aparıcı elmi işçiləri, müəllimləri və digər mütəxəssisləri dövlət hakimiyyətinin təşkilinin konstitution əsasları ilə bağlı öz təcrübə və elmi yanaşmalarını bölüşüblər.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2025-ci il tarixli 477 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2025-ci ilin 'Konstitusiya və Suverenlik ili' elan edilməsi ilə bağlı Tədbirlər Planı" çərçivəsində təşkil olunub.

# "Konstitusiyanın 30 ili - Çağırışlar və perspektivlər" mövzusunda qış məktəbi layihəsi həyata keçirilib







**Bu ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsini rəhbər tutaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "ADA" Universiteti ilə birgə "Konstitusiyanın 30 ili - Çağırışlar və perspektivlər" mövzusunda qış məktəbi layihəsi həyata keçirib.**

Layihənin açılış mərasimində ədliyyə nazirinin müavini Toğrul Hüseynov, "ADA" Universitetinin prorektoru Elkin Nurməmmədov, Universitetin professor və müəllim heyəti, habelə layihə iştirakçıları iştirak edib.

Açılış mərasimində çıxış edən ədliyyə nazirinin müavini Toğrul Hüseynov qış məktəbi layihəsinin konstitusiya dəyərlərinin təbliği və gənc hüquqşünasların peşəkar inkişafı baxımından əhəmiyyətini qeyd edib və iştirakçılara uğurlar arzulayıb.

Qış məktəbində hüquq fakültələrinin tələbələri və gənc hüquqşünaslar iştirak ediblər. Layihə çərçivəsində ümumilikdə 70 gənc hüquqşünas Konstitusiya hüququnun müxtəlif konseptual məsələləri üzrə biliklərini artırmaq imkanı əldə edib.

Mühazirələr hakimlər, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Xarici İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbər şəxsləri, eləcə də "ADA" Universitetinin təcrübəli alim və mütəxəssisləri tərəfindən təqdim olunub.

Qış məktəbinin yekununda iştirakçılara sertifikatlar təqdim edilib.



# "Biznesin müflisləşməsi" İşçi qrupunun hüquq və konsaltinq şirkətlərinin nümayəndələri ilə görüşü keçirilib

**26 dekabr 2025-ci il tarixində Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi "Biznesin müflisləşməsi" İşçi qrupunun növbəti iclası keçirilib.**



Görüşdə Ədliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın əməkdaşları, İşçi qrupun digər üzvləri, habelə aparıcı hüquq və konsaltinq şirkətlərinin nümayəndələri iştirak ediblər.

İclasda müflisləşmə və sağlamlaşdırma sahəsində mövcud olan problemlər, onların aradan qaldırılması üçün "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi" çərçivəsində görülən işlər, o cümlədən yeni qanunvericilik islahatlarını tənzimləyən layihələr barədə məlumat verilib.

Eyni zamanda, sağlamlaşdırma və müflisləşmə ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər də iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Həmçinin görüşdə dəvət edilmiş hüquq və konsaltinq şirkətlərinin nümayəndələrinin bu sahədə qarşılaşdığı çətinliklər və onların həllinə yönəlmiş təklifləri öyrənilib, eləcə də məsələyə dair onları maraqlandıran suallar cavablandırılıb.

Tədbir qarşılıqlı müzakirələr şəklində davam etdirilib.

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**







Dekabrın 23-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Göyçay, Bərdə və Şirvan regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Videoqəbulda Bələdiyyələrlə iş baş idarəsi, İstintaq idarəsi və İcra xidmətinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşların müraciətləri dinlənilib, onlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbulda iştirak edən vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.





**Dekabrın 25-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Göyçay, Lənkəran, Şəki, Gəncə və Bərdə regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.**



Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi, Tibb baş idarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşların müraciətləri dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.




**Dekabr ayında Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Bərdə, Lənkəran, Gəncə, Şəki regional ədliyyə idarələri və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.**

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda penitensiar sahə ilə bağlı 14 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş söhbət mərhələsinin nəticəsi açıqlanıb

**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqənin test imtahanından uğur qazanmış namizədlərlə fərdi qaydada keçirilmiş söhbət mərhələsi yekunlaşıb.**

Bu mərhələdə iştirak etmiş 37 namizəddən zəruri keçid balı toplamış 23 nəfərin Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunmaları barədə Nazirliyin Müsabiqə Komissiyası tərəfindən qərar qəbul edilib.

Dekabr ayının 22-dən başlayan icbari təlimin yekunları üzrə imtahandan uğurla keçən hüquqşünaslar peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə alaraq ədliyyə orqanlarına qulluğa qəbul olunacaqlar.

Namizədlər icbari təlimlə bağlı Ədliyyə Akademiyası ilə əlaqə saxlaya bilərlər (ünvan: Bakı şəhəri, Vidadi küçəsi 158, telefon: 012-493-71-31).

Söhbət mərhələsində uğur qazanaraq icbari təlimə cəlb olunan namizədlərin siyahısı

1. Abbasova Nailə Əflatun qızı
2. Ağazadə Tural Arif oğlu
3. Aslanov Anar Tahir oğlu
4. Babayeva Ayşən Salman qızı
5. Əliyev Ülfət Vilayət oğlu
6. Fərzəliyeva Səriyyə Salman qızı
7. Heydərli Əlixan Əskərqulu oğlu
8. Həmid-zadə Elnur Rəsul oğlu
9. Hüseynova Əntiqə Yaşar qızı
10. İbrahimova Reyhan Dəyanət qızı
11. İbrahimova Vüsalə Əfqan qızı
12. Kazımlı Elmira Elşən qızı
13. Qədiməliyeva Aynur Firuz qızı
14. Qəhrəmanov Abbas Cəsarət oğlu
15. Quliyeva Nərmin Nicat qızı
16. Mahmudov İsmayıl İlham oğlu
17. Məmmədova Zülfiyyə Elçin qızı
18. Məmmədzadə Aytən Sərdar qızı
19. Osmanova Xavər Vaqif qızı
20. Səfərli Könül Qurban qızı
21. Yusifzadə Vəfa Arif qızı
22. Zeynallı Aysel Fəzail qızı
23. Zeynalov Cabir İbrahim oğlu

# Ədliyyə orqanlarına qulluğa qəbul olan namizədlərin icbari təlimi başlayıb



**Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş test və söhbət mərhələlərində uğur qazanmış namizədlər üçün Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında icbari təlim proqramı başlayıb.**

Təlimin açılış mərasimində ədliyyə nazirinin müavini Abid-din Hüseynov, nazirin müşaviri Seyfəlpaşa Əliyev, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Rövşən İsmayılov və Nazirliyin İnsan resursları idarəsinin rəisi Cahangir Hacıyev iştirak edib.

Tədbirdə Nazirliyin kadr korpusunun peşəkar, müasir düşüncəli və geniş dünyagörüşünə malik gənclərlə formalaşdırılması, eləcə də onların davamlı inkişafı və səmərəli qulluq keçməsi məqsədilə mütəmadi müsabiqələrin keçirildiyi vurğulanıb. İcbari təlimin müasir tədris yanaşmaları və innovativ metodlar əsasında təşkil olunduğu diqqətə çatdırılıb.



Təxminən bir ay yarım davam edəcək icbari təlim çərçivəsində namizədlər üçün nəzəri dərslərlə yanaşı, praktiki məşğələlər, təcrübə və tanışlıq tədbirləri də təşkil olunacaq. Yeni və təkmilləşdirilmiş formatda hazırlanmış proqram vasitəsilə iştirakçılar icra, probasiya və qeydiyyat sahələri üzrə tabeli və yerli ədliyyə qurumlarının fəaliyyəti, habelə məhkəmələrdə icraatın təşkili qaydaları ilə yaxından tanış olacaqlar.

İcbari təlimin sonunda keçiriləcək yekun imtahandan uğur qazanan namizədlərə peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə təqdim ediləcək və onlar ədliyyə orqanlarında qulluğa qəbul olunacaqlar.

Qeyd edək ki, Nazirliyin Müsabiqə Komissiyası tərəfindən yekunlaşdırılan 25-ci müsabiqənin söhbət mərhələsində iştirak edən 37 namizəddən 23 nəfəri uğur qazanaraq icbari təlimlərə cəlb edilib.

# Qazaxıstandan olan hakimliyə namizədlər Ədliyyə Akademiyasında təcrübə keçiblər

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında Qazaxıstandan olan hakimliyə namizədlər üçün iki həftəlik təcrübə proqramı keçirilib.**

1-12 dekabr tarixlərini əhatə edən təcrübə proqramı Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında imzalanmış Əməkdaşlıq memorandumuna əsasən təşkil olunub və 60 akademik saatlıq təlimi əhatə edib.

Məhkəmə-Hüquq Şurasının da dəstəyi ilə təşkil olunan proqram çərçivəsində Qazaxıstandan olan 30 hakimliyə namizəd Azərbaycan məhkəmə sisteminin fəaliyyəti, məhkəmə icraatının təşkili, hüquqi tədqiqat metodları, mediasiya, hakimlərin peşə hazırlığı və rəqəmsal ədliyyə sahəsində müasir yanaşmalarla tanış olub.

Mühazirələr Ali Məhkəmənin, Bakı və Sumqayıt apellyasiya məhkəmələrinin hakimləri, tanınmış hüquqşünaslar və mütəxəssislər tərəfindən təqdim edilib.

Təlimlə yanaşı, iştirakçılar Ədliyyə Nazirliyinin Probasiya xidmətində, Məhkəmə Ekspertizası Mərkəzində, Bakı istintaq təcridxanasında, eləcə də 7 saylı Bakı "ASAN xidmət" mərkəzində, Konstitusiya Məhkəməsində, Ali Məhkəmədə, Bakı Apellyasiya Məhkəməsində, Sumqayıt Məhkəmə Kompleksində və Yasamal rayon məhkəməsində həmin qurumların fəaliyyətləri ilə yaxından tanış olublar.

Təcrübə proqramının sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Təcrübə proqramı Azərbaycan və Qazaxıstan arasında dostluq münasibətlərinin və peşəkar əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, iki ölkənin məhkəmə-hüquq orqanları arasında bilik və təcrübə mübadiləsini dərinləşdirir, gələcək hüquqşünasların peşəkar inkişafına töhfə verir və ədliyyə sahəsində qarşılıqlı əməkdaşlığın davamlı şəkildə genişlənməsinə zəmin yaradır.









Son illərdə bir sıra ölkələrin məhkəmə və hüquq orqanlarının mütəxəssis hazırlanması məqsədilə Ədliyyə Akademiyasına müraciət etməsi Akademiyanın bu sahədə formalaşdırdığı yüksək institusional potensialı təsdiqləyir. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, hüquqşünasların peşəkarlığının artırılması və ixtisaslı kadr hazırlanması istiqamətində görülmüş ardıcıl tədbirlər xarici dövlətlərin Azərbaycan təcrübəsinə artan marağını daha da gücləndirib.

# Ədliyyə Nazirliyi tərəfindən hakimlərin hazırlığının artırılması məqsədilə təlimlər keçirilib







**Ədliyyə Nazirliyinin təşkilatçılığı, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin birgə dəstəyi ilə hakimlər üçün mülki hüquq və mülki proses, həmçinin inzibati hüquq və prosesi üzrə təlimlər keçirilib.**

Təlimlər Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyev, həmin Universitetin Hüquq texnologiyaları laboratoriyasının rəhbəri, professor Konstantin Branovitskiy, Almaniyanın Berlin şəhərinin inzibati məhkəməsinin hakimi Jorg Pudelka tərəfindən keçirilib.

Hakimlərin təlimçi kimi inkişaf etdirilməsi və sonradan həmin hakimlər vasitəsilə digər hakimlərin və hakimliyə namizədlərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil edilən təlimlərdə müxtəlif instansiyalar üzrə 32 hakim iştirak edib.

Ölkəmizdə hakim korpusunun kompleksləşdirilməsi, məhkəmə hakimiyyətinin peşəkar hakimlərlə təmin edilməsi və bu çərçivədə hakimlərin hazırlığının təkmilləşdirilməsi məqsədilə hakimliyə namizədlərin ilkin uzunmüddətli təlimi və hakimlərin davamlı tədrisi Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

# Beynəlxalq axtarışda olan şəxs Azərbaycana ekstradisiya edilib

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

Dekabrın 10-da İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilmiş daha bir şəxsin Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, tamah məqsədilə və ya sifarişlə qəsdən adam öldürmə cinayətini (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.5-ci maddəsi) törətməkdə ittiham edilmiş Ukrayna vətəndaşı Samik Babayevin yeri Almaniya Federativ Respublikasında müəyyən olunub və o, həbs edilib.

Həmin şəxsin ekstradisiyası ilə bağlı Baş Prokurorluğun sorğusu və beynəlxalq prosedurlara uyğun tələb olunan sənədlərin Ədliyyə Nazirliyi tərəfindən təqdimatı əsasında razılıq əldə olunub. S.Babayev Nazirliyin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Penitensiar xidmətin məsul əməkdaşları tərəfindən Almaniyadan ölkəmizə gətirilib və Penitensiar xidmətin Bakı İstintaq Təcridxanasına yerləşdirilib.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

# Ədliyyə Nazirliyinin Tibb baş idarəsi Nazirliyin penitensiar müəssisələrinin əməkdaşları üçün təlimlər keçirib







**Dekabr ayı ərzində Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin təşkilatçılığı ilə Nazirliyin Penitensiar xidmətinin İxtisaslaşdırılmış Müalicə Müəssisəsinin (İMM) Vərəm üzrə təlim mərkəzində silsilə təlimlər keçirilib.**

Ədliyyə Nazirliyinin Penitensiar müəssisələrinin tibb xidmətində çalışan həkimlər üçün təşkil edilmiş seminar "Təxirəsalınmaz tibbi yardım və təxirəsalınmaz psixiatrik yardım" mövzusunu əhatə edib. Seminarın əsas məqsədi penitensiar müəssisələrdə fəaliyyət göstərən həkimlərin bu sahədə nəzəri biliklərinin artırılması, eləcə də praktiki vərdişlərinin təkmilləşdirilməsi olub.

Təlim çərçivəsində iştirakçılara təxirəsalınmaz psixiatrik yardımın əsas prinsipləri, böhran vəziyyətlərində davranış modelləri, habelə təxirəsalınmaz tibbi yardım və təməl yaşam dəstəyi mövzularında məlumatlar təqdim edilib. Mühazirələr interaktiv formatda təşkil olunub, təqdimatlar və müzakirələr əsasında həyata keçirilib.

Ədliyyə Nazirliyinin Penitensiar xidməti və Tibb baş idarəsinin əməkdaşları üçün təşkil olunmuş növbəti təlim "Məhkumlarda intihar davranışı və ona müdaxilə yanaşmaları" mövzusunu əhatə edib. Təlim zamanı risk amilləri, erkən əlamətlərin müəyyən edilməsi, həmçinin mümkün halların qarşısının alınmasına yönəlmiş effektiv müdaxilə mexanizmləri müzakirə olunub.

Tibb baş idarəsinin kiçik rəis heyəti üçün təşkil edilən digər təlim "Stresin idarə olunması" mövzusunu əhatə edib. Sessiya zamanı stresin yaranma səbəbləri, onun psixoloji və fiziki təsirləri, eləcə də streslə mübarizə və effektiv idarəetmə üsulları ətraflı şəkildə izah edilib.

Seminarlar Nazirliyin Tibb baş idarəsinin həkim-məsləhətçisi Fəxriyyə Quliyeva, həkim-eksperti Elmir Təhməzov və idarənin poliklinikasının psixoloqu Pərvin Quliyeva tərəfindən aparılıb.

Bu kimi təlimlər penitensiar müəssisələrdə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə, fövqəladə vəziyyətlərdə operativ və peşəkar tibbi müdaxilənin təmin olunmasına mühüm töhfə verir.

# Probasiya ilə bağlı kitabın təqdimatı keçirilib







**Dekabrın 26-da Ədliyyə Nazirliyinin Probasiya xidməti tərəfindən hazırlanmış "Probasiya fəaliyyətində sosial adaptasiya və reabilitasiya: nəzəri və praktiki məsələlər" adlı kitabın təqdimat mərasimi keçirilib.**

Tədbirdə Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva, elm və təhsil ictimaiyyətinin, dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, probasiya sahəsində fəaliyyət göstərən mütəxəssislər, habelə probasiya nəzarətində olan yetkinlik yaşına çatmayan şəxslər, probasiya könüllüləri və probasiya üzrə icra məmurları iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi Vüqar Ağayev kitabın probasiya fəaliyyətinin müasir tələblər əsasında inkişaf etdirilməsi, sosial reabilitasiya və reinteqrasiya mexanizmlərinin elmi əsaslarla formalaşdırılması baxımından əhəmiyyətini vurğulayıb, nəşrin probasiya əməkdaşları və tədqiqatçılar üçün dəyərli mənbə olduğunu qeyd edib.

Çıxış edənlər kitabın ali təhsil müəssisələrində sosial iş, psixologiya və pedaqogika ixtisasları üzrə tədris prosesinə mühüm töhfə verəcəyini bildirib, nəşrin akademik mühitdə praktiki yönümlü dərs vəsaiti kimi xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıblar.

Təqdimat mərasimi kitab ətrafında elmi müzakirələrlə davam edib. İştirakçılar nəşri probasiya nəzarətində olan şəxslərin sosial adaptasiya və reabilitasiyası sahəsində maarifləndirici vəsait və mühüm elmi mənbə kimi yüksək qiymətləndiriblər.

Tədbir çərçivəsində, həmçinin Sosial Xidmətlər Agentliyinin tabeliyində Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində peşə kurslarına cəlb edilmiş və Azərbaycan Respublikası Milli Məclisinin son Amnistiya aktı ilə cəzadan azad olunmuş, əvvəllər probasiya nəzarətində olmuş üç nəfər yetkinlik yaşına çatmayan şəxsə sertifikatlar və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, kitabın elmi-praktiki və ali təhsil müəssisələrində tədris üçün yararlılığı nəzərə alınaraq, Probasiya xidmətinin əməkdaşlıq etdiyi Azərbaycan Universitetinin Elmi Şurasının müvafiq protokol qərarı ilə dərs vəsaiti kimi çap edilməsi tövsiyə olunub. Kitab çap olunaraq müvafiq akademik qurumlara paylanılıb.

# Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzində dekabr ayında xidmət səviyyəsi 91 faizdən çox olub

**Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.**

Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.




Dekabr ayı ərzində "881" Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 16.387 müraciətdən 16.103-ü cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 91.78 faiz təşkil edib, habelə vətəndaşların müraciətlərinə orta hesabla 1 dəqiqə 58 saniyə ərzində cavab verilib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, "geriyə zəng" və "zəng sifarişi" xidmətləri ilə ay ərzində 284 itirilmiş zənglə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 461 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Korrupsiyaya qarşı mübarizə üzrə ictimai rəy sorğusu keçirilib

**Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən "Korrupsiyaya qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri" adlı metodik vəsait hazırlanır.**

